UOT 32
DOI: https://doi.org/10.30546/19063.2026.06.5289

DAVAMLI İNKİŞAF EDƏN İNKLÜZİV CƏMİYYƏTİN FORMALAŞMASI ÜÇÜN İNSTİTUSİONAL QURUCULUQ: RƏQƏMSALLAŞMA

ORXAN BÜRHAN OĞLU MƏCİDLİ
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının
Davamlı inkişafın idarə edilməsi ixtisasının doktorantı
Bakı ş., Səbail r., AZ 1001, Lermontov küç. 74
E-mail: orkhan.majidli978@gmail.com

XÜLASƏ

Məqalədə rəqəmsal inkişafın iqtisadiyyatın müxtəlif sahələrinin dinamikasına təsirindən, müasir texnologiyaların tətbiqinin yaratdığı müsbət dəyişikliklərdən, elektronlaşmanın uğurlu nəticələrindən, həmçinin rəqəmsallaşma prosesinin qarşısında duran problemlərdən bəhs olunmuşdur. Rəqəmsal inkişafın iqtisadiyyatın rəqabətqabiliyyətinin yüksəldilməsinə müsbət təsir göstərməsi elmi baxımdan əsaslandırılmışdır. Rəqəmsal iqtisadiyyat və əhatə dairəsi müəyyənləşdirilmiş, rəqəmsallaşmanın iqtisadi artım, məhsuldarlıq, innovasiya və rəqabət qabiliyyətinə təsirləri nəzərdən keçirilmişdir.

Rəqəmsallaşma iqtisadi səmərəliliyi və innovativ fəaliyyəti əhəmiyyətli dərəcədə artırır, lakin bu prosesin uğuru üçün rəqəmsal infrastruktur, insan kapitalı və dövlət siyasəti kimi amillər həlledici rol oynayır. Müasir qlobal trendlər göstərir ki, rəqəmsal texnologiyalar iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. Azərbaycan nümunəsində aparılan təhlillər nəticəsində ölkədə rəqəmsal iqtisadiyyatın inkişaf səviyyəsinin yüksəldiyi müəyyən edilmişdir.

Açar sözlər: *rəqəmsallaşma, elektron hökumət, süni intellekt, rəqəmsal iqtisadiyyat, innovasiya.*

GİRİŞ

XXI əsrin əsas inkişaf meyarı rəqəmsal texnologiyaların tətbiqi, süni intellekt imkanlarından səmərəli istifadə, innovasiya mühitinin formalaşdırılması və kibertəhlükəsizliyin etibarlı şəkildə təmin edilməsidir. Xüsusən, 2020-ci ildən sonra dünya əvvəlki inkişaf modellərindən köklü surətdə fərqlənən, Dördüncü Sənaye İnqilabının diktə etdiyi yeni qlobal nizama qədəm qoymuşdur. Bu yeni nizamın mərkəzində isə rəqəmsallaşma və rəqəmsal transformasiya prosesləri dayanır.

Dünya ölkələrinin iqtisadiyyatlarında sürətli rəqəmsallaşma meyilləri və bu əsasda məhsuldarlığın əhəmiyyətli artımı keyfiyyətli inkişaf üçün fürsətlər yaradır. Dünyada davamlı texnoloji inkişaf qlobal dəyər zəncirini sürətlə genişləndirir və onun coğrafiyasını böyüdür. Bu, qlobal əmtəə və xidmətlərin son istehlakçıya vaxtında, keyfiyyətli və aşağı qiymətə çatdırılmasına imkan verir. Rəqəmsallaşma prosesi yeni iş yerlərinin açılması, həyat keyfiyyətinin yüksəldilməsi, məhsuldarlığın artırılması, şəffaflığın təmin edilməsi, eləcə də kiçik və orta sahibkarlığın inkişafına töhfənin verilməsi ilə iqtisadiyyata və inklüziv cəmiyyətin inkişafına qlobal şəkildə müsbət təsir göstərir. Müasir iqtisadi şəraitdə rəqəmsal iqtisadiyyatın inkişafının ölkənin ÜDM-nin artım tempinin yüksəlməsinə birbaşa təsiri vardır.

Qloballaşma şəraitində rəqəmsallaşma prosesləri Azərbaycan üçün də geniş imkanlar açır. Rəqəmsallaşma və rəqəmsal iqtisadiyyat quruculuğu ölkənin dayanıqlı inkişafı üçün yeni pəncərə rolunda çıxış edir. Dördüncü Sənaye İnqilabı şəraitində Azərbaycan özünün yerləşdiyi əlverişli coğrafi mövqe, zəngin təbii sərvətləri və insan resurslarından istifadə etməklə qısa zamanda yeni sıçrayışla inkişaf edə və dünya üzrə İKT sahəsində yeni trendlərin ölkədə tətbiqinə nail ola bilər.

ƏSAS HİSSƏ

XXI əsr iqtisadiyyatı təbii sərvətlərdən yüksək texnologiyalara keçidlə nanotexnologiya, biotexnologiya və informasiya texnologiyalarının inkişafı ilə xarakterizə olunur. Yeni iqtisadiyyatın inkişafında və onun dayanıqlı və davamlı olmasında yüksək texnologiyaların rolu həlledicidir. Müasir dövrdə rəqəmsal transformasiya dövlət idarəçiliyinin təkmilləşdirilməsi, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, innovasiyaların təşviqi və vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Rəqəmsallaşmanın iqtisadiyyatın müxtəlif sektorlarına təsirini və sürətli yayılmasını nəzərə alaraq onu iqtisadi inkişafın başlıca drayveri olaraq qiymətləndirmək olar. Rusiya tədqiqatçılarının araşdırmalarına əsasən 2030-cu ildə ümumdaxili məhsulun artımının böyük hissəsi rəqəmsallaşmadan asılı olacaq.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən ardıcıl islahatlar çərçivəsində rəqəmsallaşma dövlət siyasətinin əsas prioritetlərindən birinə çevrilib. Bu istiqamətdə institusional idarəetmənin gücləndirilməsi, rəqəmsal ekosistemin formalaşdırılması və müasir texnologiyaların tətbiqinin genişləndirilməsi ölkənin dayanıqlı inkişaf strategiyasının mühüm tərkib hissəsini təşkil edir. Dövlət xidmətlərində süni intellekt əsaslı həllərin tətbiqi, virtual köməkçilərin istifadəsi, milli hesablama infrastrukturunun yaradılması və tənzimləyici test mühitinin formalaşdırılması bu sahədə Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir. Bütün bu proseslər milli maraqların qorunması və məlumat suverenliyinin təmin edilməsi prinsipləri əsasında həyata keçirilir. Həyata keçirilən islahatlar göstərir ki, Azərbaycan üçün rəqəmsal inkişaf texniki bir məsələ deyil, dövlət idarəçiliyinin modernləşdirilməsi, iqtisadi şaxələndirmə, milli təhlükəsizlik və insan kapitalının inkişafını əhatə edən kompleks strateji prioritetdir.

Azərbaycanda son illərdə rəqəmsallaşma dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilmişdir. 2026-cı ildə rəqəmsallaşma elektron hökumət süni intellekt və innovasiyalar üzrə dövlət siyasətinin əlaqələndirilməsi məqsədilə Rəqəmsal İnkişaf Şurasının yaradılması və 2026-2028-ci illər üzrə fəaliyyət planının təsdiqlənməsi bu istiqamətin əhəmiyyətini göstərir. Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" ölkənin yaxın üç il ərzində texnoloji statusunu tamamilə dəyişəcək kompleks tədbirləri və hədəfləri müəyyən edən əsas strateji sənəddir. Bu Fəaliyyət Planı ayrı-ayrı layihələrin sadə məcmusu deyil, ölkənin rəqəmsal suverenliyini təmin edən, milli maraqlara və gələcəyin texnoloji çağırışlarına əsaslanan mükəmməl yol xəritəsidir. Dövlət idarəçiliyinin bütün təbəqələrini əhatə edən bu fundamental proqram ölkədə tam formalaşmış, inteqrasiya olunmuş və kiberhədələrə davamlı rəqəmsal ekosistemin qurulmasını hədəfləyir. Bu sənəd rəqəmsallaşma, süni intellekt texnologiyalarının səmərəli tətbiqi, innovasiya ekosisteminin dinamik inkişafı və kibertəhlükəsizliyin etibarlı mühafizəsi olmaqla dörd əsas sütun üzərində qurulmuşdur. Bu mühüm istiqamətlərin uğurlu və dayanıqlı icrasını dəstəkləyən təməl amillər kimi isə infrastruktur bazasının tam modernləşdirilməsi, müasir hüquqi tənzimləmə mexanizmlərinin formalaşdırılması, yüksəkixtisaslı insan kapitalının yetişdirilməsi və mərkəzləşdirilmiş çevik idarəetmə prinsipləri müəyyən edilmişdir. Fəaliyyət Planının əsas hədəfləri dövlət idarəetməsinin optimallaşdırılması, bürokratik prosedurların tam aradan qaldırılması, beynəlxalq nüfuzlu reytinqlərdə Azərbaycanın mövqeyinin ön sıralara yüksəldilməsi və iqtisadiyyatın rəqəmsal ÜDM-dəki payının əhəmiyyətli dərəcədə artırılaraq milli gəlirlərin şaxələndirilməsidir [1].

"Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı"nda yer alan konsepsiyalardan biri e-iştirakçılıq platformasıdır. "E-iştirakçılıq" platforması biznes mühitinin yaxşılaşdırılması üzrə fəaliyyətin səmərəliliyinin artırılması, ictimai iştirakçılığın elektron və interaktiv formada təmin olunması, biznes nümayəndələri ilə rəqəmsal kommunikasiyanın qurulması və məmnunluğun yüksəldilməsi məqsədini daşıyır. Aşağıdakı cədvəldə elektron iştirakçılıq indeksi üzrə Azərbaycanın tutduğu mövqe göstərir ki, ölkədə mövcud olan elektron xidmətlərin inkişaf səviyyəsi xeyli artım əldə edib [9].

Cədvəl 1. E-iştirak indeksi

E-iştirak indeksi	2024	2022	2020	2018	2016	2014	2012	2010	2008
Azərbaycan	88	98	73	79	47	77	89	68	49

Ən mühüm və strateji məqamlardan biri Fəaliyyət Planının ölkədə mövcud olan İnformasiya Təhlükəsizliyi və Kibertəhlükəsizlik üzrə Strategiya, Rəqəmsal İnkişaf Konsepsiyası və Süni İntellekt Strategiyası ilə konseptual şəkildə uzlaşdırılmasıdır. Beləliklə, dövlətin rəqəmsal sahədəki strateji baxışı, prioritetləri və konkret icra mexanizmləri ilk dəfə olaraq vahid, monolit sistem daxilində birləşdirilmişdir. Ümumilikdə 58 mühüm təşəbbüsü əhatə edən bu irimiqyaslı plan çərçivəsində artıq 40 dövlət qurumu ilə fərdi Yol xəritələri işlənib hazırlanmış, onlardan 13-ü tam təsdiq olunmuş və ya son təsdiq mərhələsinə gətirilmişdir. Bu isə rəqəmsallaşma dalğasının ölkə miqyasında bütün sahələri əhatə edən sistemli bir institusional hərəkətə çevrildiyini aydın göstərir [10].

Rəqəmsal transformasiya artıq yalnız texnoloji ye-

nilik deyil, həm də dövlətlərin strateji inkişaf modelinin ayrılmaz tərkib hissəsidir. Elektron hökumət sisteminin qurulması, süni intellekt texnologiyalarının tətbiqi, eləcə də innovasiya ekosisteminin inkişafı ölkənin qlobal rəqabət qabiliyyətinə birbaşa təsir edir. Elektron hökumətə keçidin əsas səbəbləri dövlət xidmətlərinin keyfiyyətinin artırılması, hesabatlaşmanın artırılması, xidmətlərin şəffaflıq və xidmət prosesinin asanlaşdırılmasıdır. Elektron hökumət informasiyaya daha geniş keçidə malikdir. Bu da dövlətin cəmiyyət qarşısında cavabdehlik dərəcəsini artırır. Dövlət idarəçilik islahatları zamanı elektron hökumət hesabına həll edilən bəzi istiqamətlər bunlardır:

- Elektron hökumət ölkə hakimiyyətinin işinin səmərəliliyinin artırılmasına dəstək verir;
- Elektron hökumət texnologiya, informasiya və biliyi birləşdirmək məqsədilə dövlət və sosial-iqtisadi həyat arasında çoxtərəfli daxili kommunikasiya şəbəkələri formalaşdırır;
- Elektron hökumətə keçid xərclərin azalmasına və səmərəliliyin artmasına gətirir;
- Dövlət xidmətlərinin keyfiyyətinin artırılması dövlət islahatlarının əsas amillərindəndir;
- Elektron hökumət vasitəsilə idarəetmə nexanizminin təkmilləşdirilməsi iqtisadi və siyasi məqsədlərə çatmağa kömək edir;
- Elektron hökumət islahat proqramlarını daha səmərəli həyata keçirməyə kömək edir;
- Elektron hökumət vətəndaşların ölkə hakimiyyətinə inam səviyyəsini artırır;
- Elektron hökumətin istifadəsi əsas sahələrdə - səhiyyə, təhlükəsizlik, sosial təminat, təhsil yüksək nəticələr əldə etməyə kömək edir;
- Elektron hökumət İKT-nin cəmiyyətin bütün sahələrinə tətbiqini stimullaşdırır.

Elektron hökumətin inkişaf etdirilməsinin qarşısında bir çox problemlər dayanır. İKT istifadəsini və tətbiqini tənzimləyən normativ-hüquqi bazanın təkmilləşdirilməsinə ehtiyac var. Ölkə əhalisinin bir hissəsi üçün telekommunikasiya şəbəkəsi vasitəsilə informasiyaya əlçatanlılıq aşağı səviyyədədir. Müasir texnologiyalar ilə işləmək üçün kifayət qədər hazırlıqlı kadr çatışmazlığı müşahidə olunur [5, s.187-188].

Bir çox yerli təşkilatlar artıq süni intellekt məlumatlarına əsaslanan layihələr həyata keçirirlər. Məsələn, gömrük məntəqələrində mallar xüsusi kompüterlər və kameralar vasitəsilə skan edilir və ətraflı öyrənilir. "Elektron hökumət" portalında sifətin tanınması və "ASAN Login" vasitəsilə login tətbiq edilib. Artıq vətəndaşların 35%-i dövlət qurumları ilə rəqəmsal şəkildə əlaqə qurur. Bunun sayəsində onlar əhəmiyyətli vaxta qənaət edir və ətraf mühit karbon emissiyalarının azaldılmasından faydalanır. Bu günə kimi dövlət idarəçiliyinin dörd əsas istiqaməti tamamilə rəqəmsal formata keçib və proses davam edir. Süni intellektdən istifadə əmək fəaliyyətinə əhəmiyyətli dəyişikliklər gətirir, bir çox işi avtomatlaşdıraraq işçilərin iş yükünü azaldır. Onun həyata keçirilməsi əmək bazarı və təhsil sektoru qarşısında müasir şəraitdə zəruri bilik və bacarıqlara malik mütəxəssislərin hazırlanması məqsədini qoyur. Yerli universitetlərin 70%-nin süni intellekt sahəsi üzrə mütəxəssis hazırlaması zamanın tələbidir. 2017-ci ildən həyata keçirilən "Rəqəmsal bacarıqlar" layihəsi bu il 650 min tələbəni əhatə edib [6].

Vətəndaşların ən çox istifadə etdiyi "mygov" platforması son zamanlarda rekord göstəricilərə imza atıb. Bir neçə mühüm tətbiq platformaya uğurla inteqrasiya olunub. Daha 7 dövlət tətbiqinin xidmətlərinin də ilin sonunadək tam olaraq vətəndaşların istifadəsinə verilməsi nəzərdə tutulur. İstifadəçilərin sayının sürətlə artması xidmətlərin keyfiyyətindən xəbər verir. Bu sistem sənəd işlərini asanlaşdırır, vaxt itkisinin qarşısını alır, eyni zamanda isə şəffaflığı təmin edir. Həmçinin vətəndaşlar üçün virtual köməkçi xidməti fəaliyyət göstərir [3].

"Mygov ID" istifadəçilərə QR kod vasitəsilə dövlət və özəl qurumların sistemlərinə təhlükəsiz və rahat giriş imkanı təmin edir. Bundan əlavə, şəxsi məlumatların yenilənməsi, parolun dəyişdirilməsi, çoxfaktorlu autentifikasiya, giriş açarları (passkey) və məlumat paylaşım icazələrinin idarə olunması kimi geniş imkanlar təqdim edir. Hal-hazırda "mygov" tətbiqindən məhkumluq haqqında arayış, ailə tərkibi və ailə vəziyyəti haqqında arayış məlumatları, təhsil məlumatları, hərbi xidmətlə bağlı məlumatlar, etibarnamələrin verilməsi, kommunal xidmətlər üzrə abonent məlumatlarının dəyişdirilməsi, borc məlumatlarının təqdim olunması, səhiyyə istiqamətində peyvənd, elektron resept, tibbi göndərişlər, laborator analiz nəticələri, sağlamlıq haqqında arayış, bank kartları ilə ödəniş imkanı və bu kimi digər xidmət və məlumatlardan faydalanmaq mümkündür. Eyni zamanda, dövlət qurumları ilə əməkdaşlıq çərçivəsində həyat hadisələri üzrə bir sıra digər xidmətlər – nikah, doğum və ölüm haqqında şəhadətnamələrin əldə edilməsi platforma vasitəsilə vətəndaşlar üçün daha rahat və əlçatan olub [7].

Hazırda platforma üzərindən 386 xidmət rəqəmsal formada təqdim olunur. Ən çox istifadə olunan xidmətlər sırasında əsasən arayışların əldə olunması, kommunal və dövlət xidmətlərinə qeydiyyat və rəqəmsal sənədlərin istifadəsi yer alır. Dövlət xid-

mətlərinin rəqəmsallaşdırılması nəticəsində platformadakı xidmətlərə "mygov" üzərindən müraciətlərin sayı cari ilin ilk 7 ayında 2024-cü ilin sonu ilə müqayisədə 5 dəfədən çox artıb.

Son illərdə ölkədə rəqəmsal iqtisadiyyatın inkişafı, innovativ texnologiyaların tətbiqi və beynəlxalq iqtisadi əlaqələrin genişlənməsi əmək bazarında struktur dəyişikliklərə səbəb olmuşdur. Bu dəyişikliklər nəticəsində ixtisaslı və rəqəmsal bacarıqlara malik işçi qüvvəsinə tələbat artmış, əmək bazarında rəqabət güclənmişdir.

Cədvəl 2. Azərbaycanda rəqəmsallaşmanın əmək bazarına təsir göstəriciləri (2020–2025)

İl	İT sektorunda məşğul olanlar (min nəfər)	Rəqəmsal bacarıqlara tələbat (%-lə)
2020	90	45
2021	100	50
2022	115	58
2023	130	65
2024	145	72
2025	160	78

Göründüyü kimi, son beş il ərzində İT sektorunda məşğulluğun artması, distant iş formalarının genişlənməsi və rəqəmsal bacarıqlara olan tələbatın yüksəlməsi müşahidə olunur [8]. Bu isə qloballaşma və rəqəmsallaşmanın əmək bazarına birbaşa təsir göstərdiyini sübut edir. Eyni zamanda beynəlxalq iqtisadi böhranlar, enerji bazarındakı dəyişikliklər və texnoloji yeniliklər əmək bazarında qeyri-sabitlik yarada bilər. Bununla belə, ümumi dinamika göstərir ki, əmək bazarı bu dəyişikliklərə uyğunlaşaraq inkişaf edir və yeni imkanlar yaradır. Bu baxımdan qeyd etmək olar ki, rəqəmsallaşma proseslərinin sürətlənməsi əmək bazarında struktur dəyişikliklərinin daha da dərinləşməsinə səbəb olur və gələcək dövrdə rəqəmsal bacarıqlara malik işçi qüvvəsinin üstünlük təşkil edəcəyi gözlənilir.

Hazırda ölkədə rəqəmsal baza infrastrukturun qurulması, İKT sektorunun dayanıqlı inkişafı istiqamətində özəl sektor da mühüm təşəbbüslər irəli sürür. Son olaraq bu təşəbbüslərdən biri də Azərbaycanın hazırkı Enerji və Nəqliyyat Mərkəzi statusuna əlavə olaraq ölkənin həm də regional rəqəmsal mərkəzə çevrilməsi üçün irəli sürülən və hazırda icrası davam edən "Azerbaijan Digital Hub" proqramıdır. Ölkənin telekommunikasiya sektorunun ən iri oyunçularından biri olan Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətinin törəmə müəssisəsi olan magistral internet provayderi "AzerTelecom" şirkəti tərəfindən Azərbaycanın regional rəqəmsal mərkəzə çevrilməsi üçün icra edilən "Digital Hub" proqramı ölkədə telekommunikasiya sahəsində təkcə yeni magistral infrastruktur quruculuğunu deyil, həmçinin Azərbaycanın rəqəmsallaşmasına mühüm töhfə verilməsini özündə ifadə edir.

"Digital Hub" proqramının icrası Azərbaycanın Qafqaz, MDB, Orta və Cənubi Asiya, Yaxın Şərq və ətraf regionlar üçün Regional Rəqəmsal Mərkəzə çevrilməsini, dünyanın internet xəritəsinə Frankfurt, London, Sofiya, Moskva, İstanbul şəhərləri kimi, Bakının da yeni internet mübadilə mərkəzi olaraq əlavə edilməsini, iri kontent istehsalçıları olan brendlərin (Amazon, Apple, Alibaba, Facebook, Google, Netflix, Tencent və s.) Azərbaycanda öz nümayəndəliklərini açmasını, burada müxtəlif rəqəmsal xidmətlərin və həllərin yaradılmasını və bu xidmətlərin məhz "Made in Azerbaijan" brendi altında ətraf region dövlətlərinə ixracını özündə ehtiva edir. Proqram ölkədə mərkəşləşdirilmiş blokçeyn texnologiyasının tətbiqini, müxtəlif sahələrdə bu platformanın istifadəsini də mümkün edəcəkdir.

"AzerTelecom" şirkətinin icra etdiyi "Digital Hub" proqramı həmçinin rəqəmsallaşma və rəqəmsal iqtisadiyyatın qurulması ilə ölkə ÜDM-nin artımına töhfənin verilməsini, Xəzər dənizinin dibi ilə magistral fiberoptik kabel xəttinin çəkilişini, Avropa-Asiya arasında "Rəqəmsal İpək yolu" dəhlizinin yaradılmasını, qonşu dövlətlərin magistral infrastruktur şəbəkələrinin məhz Azərbaycanda birləşməsini, ümumilikdə isə yeni bir telekommunikasiya, rəqəmsal arxitekturanın qurulmasını nəzərdə tutur.

Eyni zamanda "Digital Hub" proqramı ilə Azərbaycanın rəqəmsallaşması onun Çinin qlobal proqramı olan "One Belt, One Road Initiative" layihəsində iştirakına töhfə verəcək, Azərbaycanın bu layihənin Avropa-Asiya arasında telekommunikasiya dəhlizinə-Rəqəmsal İpək yoluna çevrilməsini təmin edəcək.

Xüsusilə bildirmək lazımdır ki, "Digital Hub" proqramının icrası dövlət investisiyası cəlb olunmadan ölkə iqtisadiyyatının inkişafı üçün yeni imkanların yaranmasına, qeyri-neft sektorunun inkişafına, yeni iş yerlərinin açılmasına, İKT sahəsində xaricə hər hansı "beyin axını"nın qarşısının alınmasına, müxtəlif elektron xidmətlərin inkişafına və ölkənin kibertəhlükəsizliyinin təmin edilməsinə, rəqəmsal infrastruktur quruculuğuna, eləcə də beynəlxalq reytinqlərdə Azərbaycanın daha öncül mövqelərə çıxmasına imkan verəcəkdir [2].

Rəqəmsal iqtisadiyyatın ən perspektivli istiqamət-

lərindən biri də elektron ticarətdir. 2025-ci ildə Azərbaycanda elektron pərakəndə ticarətin dövriyyəsi 72 faiz artaraq 284.9 milyon manata çatıb. 2026-cı ilin ilk üç ayında isə elektron pərakəndə ticarətin dövriyyəsinin daha 35.8 faiz artaraq 80.7 milyon manata çatması müsbət dinamikanın davam etdiyini göstərir. Elektron ticarətin inkişafında "Azexport.az" internet portalının rolu böyükdür. Bu portal Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 21 sentyabr tarixli "Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında" Sərəncamına əsasən yaradılıb. Portalın yaradılmasında başlıca məqsədlərdən biri də müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə ölkə ərazisində istehsal olunan məhsulların xarici bazarlara daha rahat çıxarılmasına nail olmaqdır. Portalın uğurlu fəaliyyətinin nəticəsi olaraq sahibkarların "Amazon", "Alibaba", "TradeKey", "eBay" kimi 10-dan artıq beynəlxalq elektron ticarət platformalarında təmsil olunması 100 dəfədən çox yerli məhsulların təmsil olunması isə 500 dəfədən çox artıb [11].

Rəqəmsallaşma prosesi kənd təsərrüfatı sahəsindən də yan keçməyib və bu sahədə ciddi irəliləyişlər əldə olunub. Son illər kənd təsərrüfatında baş verən ən böyük təmayüllərdən biri süni intellektin bu sektorda tətbiq edilməsi və inkişafıdır. Süni intellektin nəinki kənd təsərrüfatında, həmçinin iqtisadiyyatın digər sahələrinin gələcək inkişafında da önəmli rol oynayacağı gözlənilir. Belə ki, süni intellekt daha sağlam məhsul yığmağa, zərərvericilərə nəzarət etməyə, torpağa və bitkinin böyümə şəraitinə nəzarət etməyə, fermerlər üçün dataların toplanmasına kömək edə bilər. Məsələn, iqlim dəyişikliyi fermerlərin toxum səpmək üçün düzgün vaxt təyin etmələrini getdikcə çətinləşdirir, süni intellektin köməyi ilə fermerlər hava proqnozundan istifadə edərək hava şəraitini təhlil edə bilərlər ki, bu da məhsulun növünü və nə vaxt yetişdiriləcəyini planlaşdırmağa kömək edə bilər. Eyni zamanda süni intellekt peyk görüntülərini əldə etməklə onları süni intellekt alqoritmləri vasitəsi ilə analiz edə, daha sonra isə tarixi məlumatlarla müqayisə etməklə hansı növ xəstəlik və zərərvericilərin məhsulun əkiləcəyi sahədə olduğunu aşkarlaya və tələb olunan ehtiyat tədbirləri və lazımi mübarizə vasitələrindən istifadə etməklə fermerlərə zərərvericilərə qarşı mübarizə aparmağa kömək edə bilər. Kənd təsərrüfatında süni intellekt texnologiyaları və həllərinə yönəlmiş xərclərin dünya üzrə 2020-ci ildə 1 milyard dollar olduğu halda, 2026-cı ildə 4 milyard dollara qədər artacağı gözlənilir. İllik orta artım sürətinin isə 25,5 faiz olacağı proqnozlaşdırılır. Süni intellekt 2050-ci ilə qədər dünya əhalisinin önəmli hissəsinin ərzağa olan tələbatının dayanıqlı şəkildə ödənilməsində güclü potensialını nümayiş etdirir.

Rəqəmsal iqtisadiyyata öz töhfəsini verən konsepsiyalardan "ağıllı şəhər" və "ağıllı kənd" layihələri uğurlu nəticə göstərmişdir. Bu yanaşma bu gün dünya praktikasında öz təsdiqini tapmış yanaşmadır. Artıq Avropada və bir sıra digər ölkələrdə məhz bu praktikadan istifadə olunur. Həm idarəetmənin çevikliyinin, həm də şəffaflığının artırılması baxımından "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası çox vacibdir. Bu, eyni zamanda, vətəndaşların kommunal xidmətlərə əlçatanlığını asanlaşdırır. Çünki "ağıllı şəhər" və "ağıllı kənd" prinsipində kommunal, sosial xidmətlərə əlçatanlıq daha yüksək olur. Daha qısa müddətdə sosial xidmətləri daha keyfiyyətli şəkildə əldə etmək imkanları yaranır. "Ağıllı kənd" dedikdə, kənd yerlərində dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün rəqəmsal əlaqə, həllər və resurslardan istifadə edən icmalar başa düşülür. "Ağıllı kəndlər" yerli kontekstdə fermerlərin və digər kənd əhalisinin problemlərinin həll edilməsi üçün ağıllı həllər hazırlayır. Bu tip kəndlər xüsusilə innovasiyanı təşviq və rəqəmsal texnologiyaların təklif etdiyi həlləri səfərbər etməklə yerlərdə iqtisadi, sosial və ekoloji şəraitin yaxşılaşdırılmasına xidmət edən iştirakçı yanaşmaya əsaslanır. "Ağıllı kənd" təkcə kənd təsərrüfatı ilə bağlı deyil. Müasir şəhərsalma standartlarının tətbiqi, küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, su elektrik stansiyalarının, günəş paneli stansiyalarının quraşdırılması, bioqaz enerjisindən istifadə kimi amillər bu konsepsiyanın əsas komponentləri sırasındadır.

Azərbaycanda "Ağıllı kənd" layihəsi ilk olaraq işğaldan azad edilən Zəngilan rayonunda icra edilməyə başlanılıb. 2021-ci ilin 26 aprel tarixində Zəngilan rayonunun Ağalı kəndində birinci "ağıllı kənd" layihəsinin təməli qoyulub. Bununla işğaldan azad olunmuş ərazilərdə müasir çağırışlara cavab verən və beynəlxalq standartlara əsaslanan yeni inkişaf modelinin icrasına başlanılıb. Bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin edilir. [4, s. 223-224] Artıq tətbiq olunan "ağıllı kənd" və "ağıllı şəhər" modelləri gələcəkdə digər regionlarda da davam etdiriləcək. Bu, bütövlükdə Qafqazda məskunlaşma və tənzimləmə baxımından yeni və xüsusi yanaşmadır.

Rəqəmsal transformasiyanın ən mühüm istiqamət-

lərindən biri gələcəyin insan kapitalına qoyulan investisiyadır. Təhsil sistemində aparılan islahatlar təkcə məktəblərin texnoloji təchizatı ilə məhdudlaşmır; burada əsas məqsəd rəqəmsal düşüncəyə malik yeni nəslin yetişdirilməsidir. Bu kontekstdə təhsil müəssisələrinin təhlükəsiz internet və yüz minlərlə müasir kompüterlə təmin edilməsi, rəqəmsal məktəb platformasının miqyasının genişləndirilməsi, "Rəqəmsal bacarıqlar" və "STEAM Azərbaycan" layihələrinin uğurlu icrası ölkənin intellektual potensialını gücləndirir. "Rəqəmsal bacarıqlar" və "STEAM Azərbaycan" layihələri vasitəsilə şagirdlərin müasir texnologiyalar üzrə bilik və bacarıqlarının inkişaf etdirilməsi prioritet istiqamətlərdən biri kimi müəyyən olunub. Bu təşəbbüslər yalnız yeni nəsildə rəqəmsal savadlılığın artırılmasına deyil, eyni zamanda gələcək əmək bazarının tələblərinə cavab verən peşəkar kadr potensialının formalaşdırılmasına xidmət edir.

Rəqəmsal inqilabın ən böyük təsirlərindən biri onlayn öyrənmə mühitlərinin yaranmasıdır. Regional məhdudiyyətləri aradan qaldırmaqla bu platformalar istənilən zaman və istənilən yerdən yüksək keyfiyyətli təhsil almağa imkan yaradır. Milyonlarla istifadəçi müxtəlif fənlər üzrə kurslara yazıla və Coursera, edX və Udemy kimi beynəlxalq platformalar vasitəsilə dünyanın ən yaxşı universitetləri tərəfindən verilən mühazirələrdə iştirak edə bilər. Onlayn təhsil mühitlərinin böyüməsi yerli kontekstdə də özünü göstərir. Məktəb sisteminin rəqəmsallaşdırılması çərçivəsində bir sıra milli onlayn təhsil resursları hazırlanmış və artıq mövcud platformaların funksionallığı artırılmışdır. Bu platformalar distant təhsil üçün alət olmaqla yanaşı, əlavə təhsil resursları kimi çıxış edərək fərdi təlimə kömək edir.

"Azərbaycanda təhsilin rəqəmsal transformasiyası" proqramı çərçivəsində elektron təhsil platformalarının yaradılması, müəllimlərin rəqəmsal savadlılığının yüksəldilməsi, məktəblərin internet resursları ilə təmin olunması istiqamətində mühüm işlər görülüb. Rəqəmsal dərsliklər, elektron qiymət kitabçaları, distant təhsil platformaları və "Elektron məktəb" informasiya sistemi bu cəhdlərin bir neçə nümunəsidir. Rəqəmsal texnologiyaların təhsilə inteqrasiyası təkcə texnoloji irəliləyiş deyil, həm də gələcəyin cəmiyyətinin formalaşmasında əsas komponentdir. Nəticədə, rəqəmsal dövrün tələblərinə cavab vermək üçün təhsil siyasətləri yenilənməli və yenidən işlənməlidir. Kibertəhlükəsizlik problemləri, texnoloji bərabərsizlik, müəllimlərin rəqəmsal savadlılığının yüksəldilməsi və texnologiya infrastrukturunun uzunmüddətli inkişafı kimi prioritetlərə diqqət yetirilməlidir. Bu problemləri həll etmək üçün metodik strategiya, vahid dövlət siyasəti və təhsil müəssisələrinin səyləri tələb olunur [12].

NƏTİCƏ

Regionlarda İKT-nin geniş tətbiqi və elektron hökumətin formalaşdırılmasında əsas məqsəd effektiv, şəffaf və nəzarət oluna bilən dövlət idarəetməsinə yerli özünüidarəetmənin həyata keçirilməsidir. Müasir dövrdə informasiya-kommunikasiya texnologiyaları təsir dairəsini genişləndirərək iqtisadi və sosial sahələri, elm və təhsil, mədəniyyəti, bütövlükdə bütün cəmiyyəti əhatə etməlidir. Azərbaycanın əmək bazarı qlobal iqtisadi proseslərin təsiri altında transformasiyaya uğrayır və bu dəyişikliklərə uyğunlaşmaq üçün müasir yanaşmaların tətbiqi vacibdir. Xüsusilə insan kapitalının inkişafı, təhsil sisteminin əmək bazarının tələblərinə uyğunlaşdırılması və rəqəmsal bacarıqların artırılması prioritet istiqamətlərdən hesab olunur. Bununla yanaşı, dövlətin aktiv məşğulluq siyasəti və əmək bazarının tənzimlənməsi sahəsində həyata keçirdiyi tədbirlər mühüm rol oynayır. Əmək bazarında dayanıqlı inkişafın təmin olunması üçün innovativ yanaşmaların tətbiqi, rəqabətqabiliyyətli işçi qüvvəsinin formalaşdırılması və sosial müdafiə mexanizmlərinin gücləndirilməsi zəruridir. Beləliklə, qloballaşma və rəqəmsallaşma şəraitində Azərbaycanın əmək bazarının səmərəli fəaliyyət göstərməsi üçün kompleks tədbirlərin həyata keçirilməsi və davamlı inkişaf strategiyalarının hazırlanması mühüm əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT SİYAHISI:

1. "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı
2. Azərbaycan. - 2019.- 19 aprel.- S.7.- Fuad Allahverdiyev
3. Təhminə Verdiyeva –Azərbaycan qəzeti /2026/ iyul/ S.9
4. V. Ə. Qasımlı, R. Z. Hüseyn, R. F. Hüseynov, R. B. Həsənov, C. R.Cəfərov, A. B. Bayramova, "Yaşıl iqtisadiyyat" Bakı, 2022, "Azprint" nəşriyyatı, 280 səh
5. Моисеева, Т. В. Особенности правового регулирования отношений в области цифровой экономики в странах Евразийского экономического союза / Т. В. Моисеева // Вестник Волжского университета имени В.

Н. Татищева. – 1. – Т. 2. – 2020.
6. https://sesqazeti.az/
7. https://my.gov.az/events
8. https://ejsr.cloud/
9. https://publicadministration.un.org/
10. https://banker.az
11. https://azertag.az/
12. https://edu.gov.az/

ИНСТИТУЦИОНАЛЬНОЕ СТРОИТЕЛЬСТВО ДЛЯ ФОРМИРОВАНИЯ УСТОЙЧИВО РАЗВИВАЮЩЕГОСЯ ИНКЛЮЗИВНОГО ОБЩЕСТВА: ЦИФРОВИЗАЦИЯ

Орхан Бурхан Меджидли
Докторант по специальности «Управление устойчивым развитием»
Академии Государственного Управления при Президенте
Азербайджанской Республики

РЕЗЮМЕ

В статье рассматривается влияние цифрового развития на динамику различных отраслей экономики, положительные изменения, обусловленные внедрением современных технологий, успешные результаты электронизации, а также проблемы, стоящие перед процессом цифровизации. С научной точки зрения обосновано положительное влияние цифрового развития на повышение конкурентоспособности экономики. Определены понятие цифровой экономики и сфера её охвата, рассмотрено влияние цифровизации на экономический рост, производительность, инновации и конкурентоспособность.

Цифровизация значительно повышает экономическую эффективность и инновационную активность, однако для успешной реализации этого процесса решающую роль играют такие факторы, как цифровая инфраструктура, человеческий капитал и государственная политика. Современные глобальные тенденции показывают, что цифровые технологии превратились в одну из основных движущих сил экономического развития. Проведённый анализ на примере Азербайджана показывает, что уровень развития цифровой экономики в стране повышается.

Ключевые слова: *цифровизация, электронное правительство, искусственный интеллект, цифровая экономика, инновации.*

INSTITUTIONAL DEVELOPMENT FOR THE FORMATION OF A SUSTAINABLE AND INCLUSIVE SOCIETY: DIGITALIZATION

Orkhan Burhan Majidli
Doctoral Student in Sustainable Development Management
Academy of Public Administration under the President
of the Republic of Azerbaijan

SUMMARY

The article discusses the impact of digital development on the dynamics of various sectors of the economy, the positive changes brought about by the adoption of modern technologies, the successful outcomes of digitalisation, and the challenges facing this process. The positive impact of digital development on enhancing the competitiveness of the economy is scientifically substantiated.

The concept and scope of the digital economy are defined, and the effects of digitalisation on economic growth, productivity, innovation and competitiveness are examined.

Digitalisation significantly improves economic efficiency and fosters innovation. However, factors such as digital infrastructure, human capital and government policy play a decisive role in ensuring the success of this process.

Current global trends indicate that digital technologies have become a key driving force behind economic development.

An analysis of Azerbaijan's experience has revealed that the level of digital economy development in the country has increased.

Key words: *digitalization, e-government, artificial intelligence, digital economy, innovation.*

Rəyçi: Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Murtəza Həsənov

Məqalə redaksiyaya daxil olub: 04.07.2026
Çapa qəbul olunub: 02.08.2026
The date of the admission of the article to the editorial office: 04.07.2026
Accepted for publication: 02.08.2026